**David Nicholls**

# *Bir Gün*

Tərcümə:
Pərviz Cəbrayıl,
Nilufər Muğantürk

QANUN NƏŞRİYYATI

David Nicholls

# One Day

Universitet tələbələri Emma ilə Dekster məzun gecəsində – 15 iyul 1988-ci ildə Müqəddəs Svitin günündə təsadüfən tanış olurlar...

Yarımçıq qalmış gecənin sabahı gənclər ayrılırlar. Hərəsi öz yetkin ömrünü qurmaq yoluna qədəm qoyur...

Müəllif iyirmi il ərzində iki adamın Bir Gününü, həm də məhz iyulun 15-də, Müqəddəs gündə anlatmaqla romanı davam etdirir; yazıçı üçün iki insan həyatını bir günün dar yuvasına sığdırmaqla təsvir etməsi son dərəcə çətin görünən vəziyyət olsa da, bu, oxucu üçün misilsiz həzz qaynağına çevrilir.

**David Nicholls** **ONE DAY**
**David Nicholls** **BİR GÜN**

Janr: roman
Yaş qrupu: 16+
Ölçü: 145x210 mm
Cild: yumşaq
Səhifə sayı: 504

Naşir: Şahbaz Xuduoğlu
Tərcümə: Pərviz Cəbrayıl,
Nilufər Muğantürk
Mətn dizaynı: Rahilə Şamilqızı
Qapaq dizaynı: Rafael Qasımlı

Qanun Nəşriyyatı
Bakı, AZ 1102, Tbilisi pr., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-36-039-4

© Qanun Nəşriyyatı, 2015, 2026
Copyright © 2009 by David Nicholls
This edition was published by arrangement
with Curtis Brown Group Limited

Bu kitabın Azərbaycan dilinə tərcümə və yayım hüquqları
Qanun Nəşriyyatına məxsusdur. Kitabın təkrar və hissə-hissə
nəşri «Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında»
Azərbaycan Respublikasının Qanununa ziddir.

*Maks və Romi, böyüdüyünüz zaman üçün...*

*Bir də həmişəki kimi Hannaya*

Günlər nədən ötrüdü?
Yaşadığımız yerdi günlər.
Gəlib oyandırırlar
Bizi heç dayanmadan.
Şad olacağımız yerlədi:
Günlərsiz harda yaşarıq?
Bu sualın cavabını
Uzun palto geyinmiş
Keşişlə həkim gətirər
Zəmiləri aşaraq.

**Filip Larkin,** *“Günlər”*

# MÜNDƏRİCAT


**BİRİNCİ HİSSƏ.** 1988-1992

I fəsil. Gələcək ........ 10
II fəsil. Həyata qayıdış ........ 26
III fəsil. Tac-Mahal ........ 49
IV fəsil. İmkanlar ........ 67
V fəsil. Sözləşmə qaydaları ........ 91

**İKİNCİ HİSSƏ.** 1993-1995

VI fəsil. Həblər ........ 128
VII fəsil. Yumor hissi ........ 163
VIII fəsil. Şou Biznes ........ 183
IX fəsil. Nikotin və alkoqol ........ 214

**ÜÇÜNCÜ HİSSƏ.** 1996-2001

X fəsil. Məqamı yaxala ........ 252
XI fəsil. İki görüş ........ 276
XII fəsil. “Səni sevirəm” demək ........ 291
XIII fəsil. Üçüncü dalğa ........ 309
XIV fəsil. Atalıq ........ 348
XV fəsil. Cin Siberq ........ 380

**DÖRDÜNCÜ HİSSƏ.** 2002-2005

XVI fəsil. Bazar ertəsinin səhəri ........ 410
XVII fəsil. Toy_nitqi.doc ........ 423
XVIII fəsil. Orta ........ 431

**BEŞİNCİ HİSSƏ.** Üç ildönümü

XIX fəsil. Sabahı gün ........ 450
XX fəsil. Birinci ildönümü. Bayram ........ 456
XXI fəsil. Arturun taxtı ........ 473
XXII fəsil. İkinci ildönümü. Əşyalar ........ 478
XXIII fəsil. Üçüncü ildönümü. Sonuncu yay ........ 490

# BİRİNCİ HİSSƏ

## 1988 – 1992

## 20 – 25

*“Mənimçün böyük dəyişikliklərə səbəb olduğuna görə unudulmaz sayılacaq bir gündü. Ancaq hər kəsin həyatında olur belə günlər. Təsəvvür eləyin, hansısa bircə günü həyatınızdan çıxarıb atsaydınız, həyatınız necə də bambaşqa olardı. Bu sətirləri oxuyanda bir anlıq dayanın və dəmirdən, qızıldan, tikanlardan, ya elə çiçəklərdən hörülmüş uzun bir zənciri gətirin xəyalınıza ki, həmin o unudulmaz gündə ilk halqası yaranmasaydı, bu zəncir sizi bir-birinizə bağlaya bilərdimi?”*

Çarlz Dikkens, *“Böyük ümidlər”*

I fəsil

# Gələcək

15 iyul. 1988-ci il. Cümə.

***Renkeylor küçəsi, Edinburq***

– Məncə, ən vacib şey özündən sonra bir iz qoymaqdı, – qız dedi. – Başa düşürsənmi, yəni, həqiqətən, nələrisə dəyişmək.

– *Dünyanı dəyişdirmək-filan*?

– Bütün dünyanı yox. Sadəcə, öz çevrəmizi.

Bir müddət təkadamlıq yataqda qucaqlaşıb, bir-birinə sarılaraq səssiz yatandan sonra sabah ağzı ikisi də səslərini qısa-qısa gülməyə başladı.

– Bunu dediyimə inana bilmirəm, – qız pıçıldadı. – Bir az bayağıdı, yox?

– Hə, bir az.

– Ancaq istədiyim səni bir az ruhlandırmaqdı. Səni gələcəkdə gözləyən böyük macəra qabağı bu çökmüş ruhunu qanadlandırmağa çalışıram, – üzünü oğlana çevirdi. – Buna ehtiyacın olduğuna görə yox. Gələcəyini bütün xırdalığınacan planlaşdırdığına əminəm. Güman ki, haradasa qeydlər apardığın bir təqvim-filan da varındı.